# Dostluğun, qardaşlığın, birliyin təntənəsi

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iyunun 15-16-da Azərbaycana etdiyi səfər iki dövlət arasındakı münasibətlərdə yeni səhifə açdı. Səfərin ən mühüm hadisəsi isə Şuşa şəhərində imzalanan Azərbaycanla Türkiyə arasında müttəfiqlik münasibətləri haqqında Bəyannamə oldu.
Milli Məclisin deputatları bu barədə fikirlərini qəzetimizlə bölüşdülər.



# Yeni tarixi mərhələ

## Azərbaycanla Türkiyənin əməkdaşlıq əlaqələri unikal müttəfiqlik nümunəsidir

**Sevinc FƏTƏLİYEVA,**
*Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini:*

- Bu gün Azərbaycanla Türkiyənin münasibətləri ən yüksək zirvədədir. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Şuşaya səfəri bu reallığı bir daha təsdiqlədi. Səfər zamanı Şuşada tarixi anlar yaşandı. Belə ki, qədim şəhərimiz olan Şuşada iki qardaş ölkə arasında münasibətlərin gələcəyini müəyyən edən müttəfiqlik haqqında Bəyannamə imzalandı. Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan tərəfindən müttəfiqlik haqqında imzalanmış Bəyannamə iki ölkə arasında əlaqələrin ən yüksək səviyyədə olduğunu təsdiqlədi. Bəyannamədə göstərilən bütün müddəalar keyfiyyətcə daha yüksək işbirliyinin təminatıdır.

Azərbaycanla Türkiyənin əməkdaşlıq əlaqələri unikal müttəfiqlik nümunəsidir. Sənəddə strateji əhəmiyyət kəsb edən bütün əməkdaşlıq istiqamətləri əhatə olunur. Bəyannamədə beynəlxalq müstəvidə birgə əməkdaşlıq, siyasi münasibətlər, iqtisadi-ticarət əlaqələri, mədəniyyət, təhsil, idman, gənclər siyasəti və s. məqamlar əksini tapır. Həmçinin bəyannamədə enerji təhlükəsizliyi, "Cənub qaz dəhlizi"nin Türkiyə, Azərbaycan və Avropa üçün önəmi göstərilir.

Şuşa Bəyannaməsində hərbi əməkdaşlıq amilinə də xüsusi yer verilir. Bu, tarixi nailiyyətdir və bir daha göstərir ki, biz bundan sonra da hər zaman bir yerdə olacaq, bir-birimizin təhlükəsizliyini təmin edəcəyik. Necə ki bu günə qədər Türkiyə və Azərbaycan bütün məsələlərdə bir yerdədir, bundan sonra da bu, belə olacaq.

Bəyannamədə Zəngəzur dəhlizinin açılması ilə bağlı çox açıq ifadələr öz əksini tapır. Bu da İkinci Qarabağ müharibəsindən sonra yaranmış yeni geosiyasi vəziyyətin nəticəsidir. Artıq Türkiyə ilə Azərbaycanı dəmiryolu və avtomobil yolu ilə birləşdirəcək Zəngəzur dəhlizi haqqında nəinki danışırıq, biz əməli, praktiki işlərlə bu dəhlizi yaradırıq. Zəngəzur dəhlizi böyük geosiyasi və iqtisadi əhəmiyyətə malikdir. Bu layihənin həyata keçirilməsi ilə Şərqdən Qərbə bütün ölkələrin istifadə edə biləcəyi yeni bir ortaq iqtisadi dəhliz açılacaq. Müttəfiqlik haqqında imzalanmış birgə Bəyannamədə bu məsələnin əks olunması böyük məna daşıyır. Müttəfiqliyimizin əhəmiyyətini və ölkələrimizin qüdrətini artıran amillərdən biri də hərbi sənaye sahəsindəki əməkdaşlıq olacaqdır. Bilirsiniz ki, 44 günlük müharibədə pilotsuz uçuş aparatları böyük rol oynayıblar. Müdafiə sənayesi sahəsində əlaqələrin inkişafı ölkələrin hərbi qüdrətini artıracaqdır. Azərbaycan bu sahədə də istehsal mərkəzi kimi inkişaf edəcək.

Şuşa Bəyannaməsi Azərbaycan ilə Türkiyənin qardaşlığını bütün dünyaya bildirən bir mesajdır. Qədim şəhərimiz olan Şuşadan verilən açıqlamalar bütün dünyaya səs salacaq, bunun böyük əks-sədası olacaq. Bu səfərin tarixi əhəmiyyətindən bundan sonra da uzun illər danışılacaq. Şuşada dalğalanan Azərbaycan və Türkiyə bayraqları ölkələrimizin birliyini nümayiş etdirir. İkinci Qarabağ müharibəsi başlanan gündən, ilk saatlardan Türkiyə Prezidenti Azərbaycana birmənalı, dəqiq və açıq dəstək ifadə edib. Müharibənin ilk saatlarından Türkiyə Prezidenti bildirdi ki, Azərbaycan tək deyil. Bu həm bizi ruhlandırdı, həm də müdaxilə etmək fikrində olan bütün qüvvələri, dairələri dayandırdı. Diplomatik münasibətlərin yeni səviyyəsinə gəlincə, Şuşa şəhərində qardaş Türkiyənin baş konsulluğunun açılmasına dair qəbul olunmuş qərar iki ölkə arasında münasibətləri dərinləşdirməklə yanaşı, Türkiyənin işğaldan azad olunmuş ərazilərdə aparılacaq bərpa-quruculuq işlərində oynayacağı mühüm roldan xəbər verir.

## Şuşada tariximizin yeni Zəfər salnaməsi yazıldı

**Məşhur MƏMMƏDOV,**
*Milli Məclisin deputatı:*

- Bu günlərdə hər birimiz yenidən qürur və dərin sevinc içərisindəyik. Çünki Azərbaycanın müstəqilliyinin bərpasının 30-cu ildönümü ərəfəsində dövlətçilik salnaməsinin növbəti şərəfli səhifəsi yazılmaqdadır. Xalqımız tariximizə qızıl hərflərlə həkk olunan növbəti hadisəyə iyun ayının 15-də - Milli Qurtuluş Günündə Türkiyə Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın respublikamıza səfəri və Azərbaycanla-Türkiyə arasında Şuşa Bəyannaməsinin imzalanması ilə şahidlik etdi.

Türkiyə Prezidentinin Azərbaycana səfəri və Şuşaya getməsi ilk növbədə iki qardaş dövlət və onların rəhbərləri arasında sarsılmaz münasibətlərin ən yüksək səviyyədə olmasının bariz nümunəsidir. Prezident Rəcəb Tayyib Ərdoğanın Azərbaycana NATO Zirvə görüşündə iştirak etdikdən və ABŞ, Fransa, Almaniya, Böyük Britaniya kimi dövlətlərin liderləri ilə görüşlərdən sonra səfər etməsi və Şuşaya getməsi həm də bütün dünyaya verilən bir mesaj idi: Türkiyə rəhbəri bununla bir daha dünyaya göstərdi ki, hər zaman olduğu kimi, bundan sonra da qardaş Azərbaycanın yanında olacaq.

Prezident İlham Əliyevlə Rəcəb Tayyib Ərdoğanın Şuşada keçirdikləri görüş, Heydər Əliyev Fondunun təşkil etdiyi "Musiqi irsi və Qarabağ atları Cıdır düzündə" adlı musiqili kompozisiyada iştirak etmələri, "Xan qızı" bulağına getmələri, Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvan, Bülbül və Üzeyir Hacıbəylinin heykəllərini ziyarət, o cümlədən Şuşada Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın və Türkiyə Respublikasının birinci xanımı Əminə Ərdoğan ilə görüşü Azərbaycan-Türkiyə qardaşlığının növbəti təcəssümü olmaqla yanaşı, həm də birliyimiz barədə dünyaya açıq mətnlə verilən mesajlar oldu. Hər iki lider Şuşadan bölgəyə və bütün dünyaya çox mühüm açıqlamalar verdilər. Bu baxımdan iki qardaş dövlətin prezidentlərinin Şuşada görüşmələri və danışıqlar aparmaları olduqca böyük və tarixi siyasi əhəmiyyət daşıdı.

Şuşada "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"nin imzalanması isə iki qardaş dövlətin Qarabağ müharibəsində qazandıqları tarixi Zəfərin yeni müstəvidə davamı idi. Prezident İlham Əliyev bu səfərin tarixi əhəmiyyətinin olduğunu qeyd edərək müttəfiqlik haqqında imzalanmış birgə Bəyannamənin əlaqələrimizin bundan sonrakı inkişafında mühüm sənəd olduğunu bəyan etdi: *"Bu gün müttəfiqlik haqqında imzalanmış birgə Bəyannamə əlaqələrimizi ən yüksək zirvəyə qaldırır. Bəyannamənin adı özü-özlüyündə hər şeyi deyir. Biz bu gün keyfiyyətcə yeni əlaqələr qurmuşuq və bu bəyannamədə göstərilən bütün müddəalar bizim gələcək işbirliyimizin təminatıdır".*

Birgə müttəfiqlik Bəyannaməsi Qars müqaviləsindən sonra iki ölkə arasında münasibətlərin yeni mərhələdə inkişafını əks etdirən ən böyük tarixi razılaşmadır. Çünki bəyannamə Azərbaycanla Türkiyə arasında münasibətlərin bundansonrakı yeni strateji məzmununu müəyyən edir, əlaqələrin ən yüksək səviyyəyə qaldırmaqla, keyfiyyətcə yeni mərhələyə qədəm qoymasına yol açır. Ona görə bu tarixi sənəd iki qardaş ölkənin ümumi maraqlarının qorunmasında imkanların birləşdirilməsinin, eləcə də ortaq maraq kəsb edən regional və beynəlxalq strateji məsələlərdə fəaliyyətlərin qarşılıqlı şəkildə əlaqələndirilməsinin məntiqi nəticəsi olaraq, onların regional və beynəlxalq rolunu və çəkisini daha da artıracaq. Müttəfiqlik haqqında imzalanmış birgə Bəyannamədə Zəngəzur dəhlizi ilə bağlı məsələnin də əks olunması olduqca əhəmiyyətlidir.

Torpaqlarımızın işğaldan azad edilməsi, ərazi bütövlüyümüzün bərpa olunması və Dağlıq Qarabağ münaqişəsinə son qoyulması ilə nəticələnən 44 günlük Vətən müharibəsi həm də Azərbaycan-Türkiyə münasibətlərinin ən yüksək səviyyədə olduğunu bütün dünyaya nümayiş etdirdi. Müharibənin ilk günlərindən qardaş Türkiyə Azərbaycana siyasi-mənəvi dəstək verdi. Prezident Rəcəb Tayyib Ərdoğan açıq və birmənalı bəyanatlar səsləndirərək, bu müharibədə Azərbaycanın tək olmadığını, Türkiyənin hər zaman ölkəmizin yanında olduğunu göstərdi. Bu, gücümüzə güc qatdı, Qarabağ Zəfərində mühüm rol oynadı. Təbii ki, bu Zəfərin Azərbaycanla Türkiyə arasındakı əlaqələrin daha da genişlənməsinə təsir göstərəcəyi və münasibətlərin daha da dərinləşdirilməsinə yol açacağı gözlənilən idi. Və göründüyü kimi, bütün bunlar baş verdi və Prezident Rəcəb Tayyib Ərdoğanın Azərbaycana səfəri zamanı Şuşa Bəyannaməsinin imzalanması ilə iki qardaş ölkə arasındakı münasibətlər yeni mərhələyə qədəm qoydu.

Prezident Rəcəb Ərdoğanın Şuşa səfərinin ardından Milli Məclisdə etdiyi çıxış isə şahidi olduğumuz böyük siyasi-tarixi prosesin məntiqi davamı idi. Bir gün öncə Azərbaycan Prezidenti İlham Əliyevlə və nümayəndə heyəti ilə birgə Şuşada olduğunu deyən Türkiyə Prezidenti Ərdoğan bu qədim Azərbaycan şəhərində, azad Qarabağ torpağında Azərbaycan bayrağının qürurla dalğalandığını görməkdən bəxtiyarlıq duyğuları yaşadığını diqqətə çatdırdı. Zaman keçdikcə Qarabağ zəfərinin Azərbaycana, Qafqaza və dünyaya gətirəcəyi faydaların daha yaxşı anlaşılacağına əminlik ifadə edən Prezident Ərdoğan bu qələbənin quruculuğun, ədalətin, sülhün Zəfəri olduğunu vurğuladı.

Azərbaycanın və Türkiyənin ortaq gücü regionda yeni şərait yaradıb. Şuşa Bəyannaməsində də bu məsələ öz əksini tapdı. Yeni reallıq regionun bütün dövlətlərinin inkişafına və rifahına xidmət edir. 44 günlük Vətən müharibəsində işğal siyasətinə son qoyulan Ermənistanın da bu reallıqla barışmaqdan başqa yolu yoxdur. Çünki Ermənistan üçün bu yolun alternativi səfalət və zülmətdir. Şuşadan dünyaya mesajlar verən Azərbaycan və Türkiyə prezidentləri hər kəsi həqiqətləri görməyə, Azərbaycan xalqının Zəfərini qəbul etməyə və gələcəyə baxmağa dəvət etdilər.

## Tarixi, dünyəvi və bəşəri bəyannamə

**Səbinə XASAYEVA,**
*Milli Məclisin deputatı:*

- 1991-ci il oktyabrın 18-də Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul edildi. Azərbaycanı dünyanın əksər dövlətləri tanıdı. Türkiyə bu tanınmanın ilk dövəti oldu. Qardaş ölkə Azərbaycanı qədərsiz sevinclə, ehtiramla tanıdı. Azərbaycanla Türkiyə arasında bütün istiqamətlər üzrə əlaqələr quruldu və bunlar gələcək əlaqələr üçün etibarlı təməl oldu. Böyük tarixi şəxsiyyət Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamı siyasi, iqtisadi, mənəvi, eləcə də geostrateji mahiyyəti ilə iki dövlətin inkişaf istiqamətinin konturlarını müəyyənləşdirdi.

Tarix təsdiqləyir ki, Azərbaycan-Türkiyə münasibətləri həmişə milli, xəlqi ruha söykənib. M.Ə.Rəsulzadə ilə Mustafa Kamal Atatürkün, Heydər Əliyevlə Süleyman Dəmirəlin, İlham Əliyevlə Rəcəb Tayyib Ərdoğanın səmimi qardaşlıq münasibətləri iki dövlət arasında əlaqələrin başlıca zəmanəti, etimadı, ehtiramı olub. Tarix onu da təsdiqləyir ki, Azərbaycanla Türkiyə arasında qarşılıqlı hərbi əlaqələrin tarixi yüz il əvvəllərə səsləşir.

Yüz il əvvəl Nuru paşanın komandanlığı ilə Qafqaz İslam Ordusu Bakını ermənilərdən təmizlədi. O tarixdən yüz il sonra Türkiyənin qardaşlıq köməyi ilə Azərbaycanın torpaqları işğaldan azad edildi.

Yüz il əvvəl Qars müqaviləsi imzalandı. O müqavilədən yüz il sonra ruhumuzun şəhəri olan Şuşada Türkiyə və Azərbaycan dövlətləri arasında Şuşa Bəyannaməsi imzalandı.

"Azərbaycanın kədəri kədərimiz, sevinci sevincimizdir" - Mustafa Kamal Atatürk deyirdi.

"Bir millət, iki dövlət" - Heydər Əliyev deyirdi.

"Türkiyə-Azərbaycan dostluğu sarsılmasdır, əbədidir" - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev belə deyir.

"Bundan sonra güclənən bir Azərbaycan, güclənən bir Türkiyə vardır" - Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan belə deyir.

2020-ci il sentyabr ayının 27-də əks-hücum əməliyyatı kimi başlayan, Vətən müharibəsi kimi davam edən döyüşlərdə Türkiyə birmənalı şəkildə Azərbaycanın yanında oldu. Türkiyə dövlətinin və onun başçısının Azərbaycana göstərdiyi diplomatik, siyasi dəstək bir reallığı da yaşatdı - Azərbaycan tək deyil. 44 gün davam edən Vətən müharibəsinin hər günü Azərbaycanda hansı həyəcanlarla, hansı inamla yaşanılırdısa, Türkiyədə də həmin həyəcanlarla, həmin inamla yaşanılırdı. Noyabrın 8-də Şuşa şəhəri işğaldan azad edildi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə həmin gün Zəfər günü elan edildi. Zəfər günü Azərbaycanda olduğu kimi, Türkiyədə də böyük coşqu yaratdı. Həmin gün hansı coşqu ilə "Azərbaycan!" deyildisə, həmin coşqu ilə "Can Azərbaycan!" da deyildi.

İyunun 15-də Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycana tarixi səfər etdi. Bu səfər zamanı rəsmi görüşün Şuşada olması iki dövlətin ruh eyniliyinin təsdiqidir. Ona görə də bu görüşə qarşılıqlı ehtiram görüşü də deyə bilərik. Ona görə ki. bu görüş dünyanın diqqətini çəkdi. Türkiyəyə və Azərbaycana ehtiramı olan dövlətlər bu görüşü bəşəri niyyətlər görüşü kimi izlədilər. Şuşada imzalanan "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi" isə İlham Əliyevin dediyi kimi: "Bu onu göstərir ki, biz həmişə bir yerdə olacağıq və bir-birimizin təhlükəsizliyini təmin edəcəyik". Bu bəyanat ordusu tamamilə dağılmış Ermənistanı da, onu dəstəkləyən dövlətləri də ciddi düşündürməlidir. Vətən müharibəsində dünya Azərbaycan Ordusunun gücünü, əsgər və zabitlərinin döyüş əzmini, qələbə ruhunu gördü. Onu da gördü ki, bu xalq üçün Vətən müqəddəsliyi var, Vətən müqəddəsliyini qorumaq üçün şəhidlik müqəddəsliyi var.

Şuşa Bəyannaməsi tarixi bəyannamədir. Türkiyə ilə Azərbaycan üçün üçüncü dövlətdən təhlükə olarsa, bir-birini qoruyacağını bəyan edən bəyannamədir. Bu Bəyannamə 30 il çəkən işğalı sonlandıran qüdrətin bəyannaməsidir.

Üçtərəfli bəyanatdan sonra Zəngəzur dəhlizi haqqında fikirlər haçalandı, özünün düşüncəsiyləmi, yoxsa öyrədildiyinə görəmi, hər nədən isə, Ermənistan bu maddənin yerinə yetirilməsini bütün siyasi imkanlarıyla ləngitmək, aradan qaldırmaq istəyirdi. Ermənilliyin hələ də imzalanmış, razılaşdırılmış sənədləri gücdən, qüvvədən salmaq niyyətində olduğu vaxtlarda imzalandı Şuşa Bəyannaməsi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dedi: "Bəyannamədə Zəngəzur koridorunun açılması ilə bağlı çox açıq ifadələr öz əksini tapıb. Bu da İkinci Qarabağ müharibəsindən sonra yaranmış yeni geosiyasi vəziyyətin nəticəsidir. Bu gün biz Türkiyəni və Azərbaycanı dəmiryolu və avtomobil yolu ilə birləşdirəcək Zəngəzur dəhlizi haqqında nəinki danışırıq, biz əməli-praktik işlərlə bu dəhlizi, bu koridoru yaradırıq". Bu əminlik erməniliyin sonunun çatdığını bildirən əminlikdir.

Şuşa Bəyannaməsi son yüz ilin ən dünyəvi, ən bəşəri, ən ədalətli bəyannaməsidir. Dünyanın ədalətli siyasətçiləri Azərbaycanın və Türkiyənin birgəlik bəyannaməsini tarixi bəyannamə kimi dəyərləndirir.

## Şuşa Bəyannaməsi Azərbaycan-Türkiyə müttəfiqliyini daha da möhkəmləndirdi

**Cavid OSMANOV,**
*Milli Məclisin deputatı:*

- Miqyasına və məzmununa görə dünyada analoqu olmayan Azərbaycan-Türkiyə münasibətləri ötən ilin Vətən müharibəsi zamanı özünün tarixi sınağından layiqincə çıxaraq daha da möhkəmləndi. Torpaqlarımızın azad olunması ilə nəticələnən 44 günlük savaş günlərində bütün dünya bir daha Azərbaycan-Türkiyə qardaşlığının möhkəmliyini və sarsılmazlığını gördü. Azərbaycanın haqq işini qətiyyətlə dəstəkləyən Türkiyə dövləti özünün qardaşlıq və mənəvi missiyasını yerinə yetirdi.

Xalqımızın müstəqillik tarixinin ən mühüm səhifələrindən olan 15 İyun - Milli Qurtuluş Günündə isə Azərbaycan-Türkiyə münasibətlərinin tarixində məzmun və keyfiyyətcə yeni mərhələnin təməli qoyuldu. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana səfəri Şuşa şəhərində imzalanan "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi" iki dövlət arasındakı qardaşlığın və strateji tərəfdaşlığın siyasi və mənəvi təcəssümü oldu. Ona görə bundan sonra iyunun 15-i tarixi bizim üçün həm də Azərbaycan-Türkiyə münasibətlərində yeni mərhələnin başlandığı tarix kimi əlamətdar olacaq.

Prezident Rəcəb Tayyib Ərdoğanın Azərbaycanın işğaldan azad edilmiş qədim Şuşaya səfər etməsi, dövlət başçılarının Şuşa görüşü tarixi əhəmiyyət daşıdı və həm də ondan xəbər verdi ki, qardaş Türkiyə dövləti Azərbaycanın qələbə sevincini dərindən bölüşür və paylaşır. Mətbuata verilən bəyanatlar, "Xan qızı" bulağını ziyarət və Cıdır düzündəki kompozisiyanı izləyən zaman Türkiyə nümayəndə heyətinin dərin sevincini görməmək mümkün deyildi. Bu isə bir daha göstərdi ki, Azərbaycan-Türkiyə münasibətlərinin türk dünyasının öndərləri Mustafa Kamal Atatürkün və Heydər Əliyevin müdrikcəsinə söylədikləri "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" və "Bir millət, iki dövlət" tezislərinə uyğun möhkəmlənərək inkişaf edir.

Şuşa Bəyannaməsi müstəqillik, suverenlik, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı, dövlətlərin daxili işlərinə qarışmamaq prinsiplərini rəhbər tutan, milli maraq və mənafelərini müdafiə və təmin etməyə yönəlmiş müstəqil xarici siyasət həyata keçirən hər iki ölkə tərəfindən müttəfiqlik münasibətlərinin qurulmasının siyasi və hüquqi mexanizmlərini müəyyənləşdirmək baxımından mühüm əhəmiyyət kəsb edir.

Sənəddə birgə milli mənafelər baxımından siyasi, hərbi və təhlükəsizlik sahələrində əlaqələndirilmiş və birgə fəaliyyətlərin təşviq edilməsi də xüsusi yer alıb. Tərəflərdən hər hansı birinin müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə birgə məsləhətləşmələr aparılması, bu təhdid və ya təcavüzün aradan qaldırılması məqsədilə BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə müvafiq təşəbbüs həyata keçirilməsi, BMT Nizamnaməsinə uyğun olaraq bir-birinə lazımi yardım göstərməsi, Silahlı Qüvvələrin güc və idarəetmə strukturlarının əlaqələndirilmiş fəaliyyətinin təşkili nəzərdə tutulur.

Bəyannamədə toxunulan əsas məsələlərdən biri də Zəngəzur dəhlizi ilə bağlıdır. Tərəflər Azərbaycan və Türkiyəni birləşdirən Azərbaycan Respublikasının qərb rayonları ilə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası arasında dəhlizin (Zəngəzur dəhlizi) açılmasının və həmin dəhlizin davamı kimi Naxçıvan-Qars dəmir yolunun tikintisinin iki ölkə arasında nəqliyyat-kommunikasiya əlaqələrinin intensivləşməsinə mühüm töhfə verəcəyini qeyd edirlər. Zəngəzur dəhlizi bütün türk dünyasını birləşdirən bir körpü olacaq. Bu məsələnin Şuşa Bəyannaməsində qeyd olunması göstərir ki, Azərbaycan və Türkiyə bölgənin yeni reallığına uyğun olaraq ən qısa müddətdə Zəngəzur dəhlizini reallaşdıracaqlar.

Sənəddə yer alan bütün məsələlərin hər biri Azərbaycan üçün olduqca vacibdir. Bu baxımdan Şuşa Bəyannaməsi Azərbaycanın və Türkiyənin milli maraqlarını tam ehtiva edir. Ümumiyyətlə isə, Azərbaycan-Türkiyə münasibətləri strateji məzmun daşıyıb. İndiyədək iki ölkə arasında strateji müttəfiqlik münasibətlərini müəyyən edən sənədlər imzalanıb. Şuşa Bəyannaməsi isə bu müttəfiqliyi daha da möhkəmləndirdi və ona yeni siyasi məzmun verdi.

Türkiyə Prezidenti Azərbaycana gəlməzdən əvvəl NATO-nun zirvə görüşündə iştirak etmiş, ABŞ prezidenti C.Bayden, Fransa prezidenti E.Makron, Böyük Britaniyanın Baş naziri Boris Conson, Almaniyanın Kansleri Angela Merkel ilə görüşmüşdü. Bu mühüm toplantının və görüşlərin ardından Rəcəb Tayyib Ərdoğanın Azərbaycana səfəri və Şuşa Bəyannaməsinin imzalanması ilə Türkiyə bir daha bütün dünyaya göstərdi ki Azərbaycanın haqq işini hər zaman müdafiə edəcək.

Onu da qeyd edim ki, Azərbaycanda fəaliyyət göstərən 48 siyasi partiya Şuşa Bəyannaməsi ilə əlaqədar birgə bəyanat yayaraq milli həmrəylik nümayiş etdirdilər. Siyasi partiyalar bəyannaməni hər iki ölkənin gələcək birgə fəaliyyətinin vacib əsası hesab edərək, bu yüksək strateji müttəfiqlikdə dövlətimizin yanında olduqlarını bəyan etdilər. Bu bəyanat ölkəmizdəki milli birliyin növbəti təntənəsi oldu.

Azərbaycanın milli maraqları ilə bağlı olan bu məsələdə yalnız AXCP və Müsavat partiyaları xalqımız və dövlətimizlə həmrəylik nümayiş etdirməkdən uzaq oldular. Bu partiyalar xarici havadarlarından aldıqları təlimatlara əsasən həmişə olduğu kimi, bu dəfə də antimilli mövqe ortaya qoydular. Onların bu mövqeyi Azərbaycan xalqının iradəsini əks etdirmir.

## Şuşa Bəyannaməsi Azərbaycan-Türkiyə əlaqələrini daha da dərinləşdirmək üçün mühüm yol xəritəsidir

**Rəşad MAHMUDOV,**
*Milli Məclisin deputatı:*

- Şuşa Bəyannaməsi hər şeydən öncə iki qardaş ölkə arasında münasibətlərin gələcəyini müəyyən edən yol xəritəsi kimi diqqət çəkir. Şübhəsiz ki, tarixə əsaslanan bu mühüm sənədin imzalanması ilə Azərbaycan və Türkiyə arasında siyasi, sosial-iqtisadi əməkdaşlıq özünün yeni mərhələsinə daxil olur. Bəyannamədə böyük lider və öndərlər Mustafa Kamal Atatürkün və Heydər Əliyevin "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir", "Türkiyə və Azərbaycan bir millət, iki dövlətdir" ifadələrinin öz əksini tapması isə XXI əsrdə bu qardaşlığın əbədi və dönməz olmasından, strateji müttəfiqlik münasibətlərinə xüsusi əhəmiyyət verilməsindən xəbər verir.

Bu bəyannamə eyni zamanda 44 günlük müharibədən sonra bölgədə yaranan yeni əməkdaşlıq imkanlarını reallaşdırmaq istiqamətində önəmli addımlar atan iki qardaş ölkənin sülhə, əmin-amanlığa sadiq qaldığını göstərir. Başqa sözlə, Azərbaycan və Türkiyə bütün potensial gücünü bəyannamədən irəli gələn vəzifələrin icrasına yönəltməklə, Cənubi Qafqazı sülh regionuna çevirmək məqsədini qarşıya əsas hədəf kimi qoyur.

Türkiyənin qısa vaxtda Şuşada baş konsulluğunu açmaq istəyi də qardaş ölkənin bu bölgədə mövqeyinin və gücünün möhkəmlənməsi kimi dəyərləndirilməlidir. Bu həm də Azərbaycanın güclü, qüdrətli bir dövlət kimi dünyada nüfuzunun daha da artmasını, beynəlxalq aləmdə söz sahiblərindən biri kimi tanınmasını şərtləndirir.

Şuşa Bəyannaməsindən danışarkən bir məqama da xüsusi toxunmaq lazımdır. Vətən müharibəsindəki parlaq Qələbəmizin əsasında bir sıra amillərlə yanaşı, son illərdə ordu quruculuğunun inkişafı istiqamətində gerçəkləşdirilən layihələr də xüsusi yer tutub. Silahlı Qüvvələrimiz inkişaf etmiş texnologiyalardan peşəkar şəkildə istifadə edib. Bununla da Azərbaycan Vətən müharibəsində müasir döyüş tarixinin tamamilə yeni bir parlaq səhifəsini yazıb. Əməliyyatların zirvəsində isə Şuşa savaşı xüsusi yer tutub. Bu sözləri ona görə deyirəm ki, bəyannamədə müdafiə sahəsində əməkdaşlıq və qarşılıqlı hərbi yardım məsələləri öz əksini tapıb. Bu, tarixi nailiyyətdir. Bu, eyni zamanda bir daha göstərir ki, Azərbaycan və Türkiyə indiyədək olduğu kimi, bundan sonra da hər zaman bir-birinin yanında olacaq, bir-birinin təhlükəsizliyini təmin edəcək.

Sənəddə Zəngəzur dəhlizi məsələsinə xüsusi yer ayrılıb. Bəyannamənin imzalanmasından sonra Prezident İlham Əliyev mətbuata bəyanatında bu barədə bəhs edərək bildirib ki, sənəddə Zəngəzur dəhlizinin açılması ilə bağlı çox açıq ifadələr öz əksini tapıb. Bu da İkinci Qarabağ savaşından sonra yaranmış yeni geosiyasi vəziyyətin məntiqi nəticəsidir. Bu gün Türkiyə ilə Azərbaycanı dəmir yolu və avtomobil yolu ilə birləşdirəcək Zəngəzur dəhlizi haqqında nəinki danışılır, hətta əməli, praktiki işlərlə bu dəhliz yaradılır. Müttəfiqlik haqqında imzalanmış birgə Bəyannamədə bu məsələnin əks olunması böyük məna daşıyır. Zəngəzur dəhlizinin açılması Cənubi Qafqazdan keçən marşrutlar sisteminin fəaliyyətini daha da canlandıracaq. Dəhliz həmçinin Azərbaycan və İran Culfası arasında dəmir yolu xəttinin açılışına və İranın dəmir yollarına çıxış əldə etməyə imkan verəcək. Bununla bərabər, Zəngəzur dəhlizi təkcə dəmir yolları deyil, həm də avtomobil yolları sisteminə malik olacaq. Deməli, bu dəhlizin yaradılması həm də avtomobil əlaqəsinin açılmasına imkan yaradacaq. Hazırda Türkiyədən yüklər Azərbaycana Gürcüstan və İran vasitəsilə tranzit yolu ilə çatdırılır. Bu marşrutun yaradılması Türkiyədən Azərbaycana və əks istiqamətdə malların birbaşa tədarükünü asanlaşdıracaq. Beləliklə, daha bir kommunikasiya xətti türk dünyası coğrafiyasında, eləcə də Asiya və Avropa arasında əlaqələrin daha sürətli və asan olmasına şərait yaradacaq.

Göründüyü kimi, artıq bölgədə yeni nəqliyyat və infrastruktur xəritəsinin formalaşdırılmasına başlanılıb. Təsadüfi deyil ki, Azərbaycan müstəqillik əldə etdikdən indiyədək Asiya və Avropanı birləşdirən yüksək əhəmiyyətli nəqliyyat dəhlizləri yaradıb. Məhz ölkəmizin təşəbbüsü ilə reallaşdırılan "Şimal-Cənub", "Şərq-Qərb" və "Cənub-Şimal" nəqliyyat dəhlizləri qitələrarası daşınmaların həyata keçirilməsini gerçəkləşdirib. Bu nəqliyyat dəhlizləri istifadəyə verildiyi vaxtdan tarixi İpək yolunun bərpasında mühüm önəm daşıyıb.

***"Azərbaycan"***